**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XOŞQƏDƏM AKİF QIZI İSLAMOVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ AQRAR SİYASƏTİ (1991-2008-CI ILLƏR)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**BAKI – 2013**

Dissertasiya işi Bakı Dövlət Universitetinın «Azərbaycan tarixi (humanitar fakültələr üzrə)» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **İ.X.Zeynalov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Ə.İ.Muxtarova**
Tarix üzrə elmlər doktoru **Ə.Q.Qasımov**

**Aparıcı müəssisə:** Bakı Slavyan Universitetinın "Azərbaycan tarixi və ictimai elmlər " kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix elmləri doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "11__" 05___2013-cü il tarixli iclasında, saat __00-da olacaqdır.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_____"______________2013 -cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**

**tarix üzrə elmlər doktoru, professor R.C.Süleymanov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Cəmiyyətin inkişafı həlledici dərəcədə iqtisadiyyatda, onun son dərəcə zəruri sahəsi olan kənd təsərrüfatında kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə, aqrar-sənaye kompleksinin intensiv inkişaf etdirilməsi ilə müəyyən edilir. İnsanların istehlak tələbatı və dövlətin ərzaq təhlükəsizliyi təminatı aqrar münasibətlər və onun tətbiqi məsələsi ilə bağlı yürüdülən siyasi xətt və iqtisadi doktirinaların araşdırılmasını həmişə aktual mövzular sırasına daxil etmişdir. Məhz Azərbaycan Respublikasında 1991-ci ildən 2008-ci ilədək olan dövrdə aparılan aqrar siyasətin kompleks öyrənilməsi mövzunun aktuallığını şərtləndirən başlıca amil olmuşdur.

Məlumdur ki, SSRİ-nin iflası ilə müstəqilliyini bərpa edən Azərbaycanın ənənəvi iqtisadi əlaqələri pozuldu, istehsalın səviyyəsi kəskin şəkildə azaldı, istehsal vasitələrinin və bir sıra xammal ehtiyatlarının çatışmazlığı kəskin surətdə hiss olunmağa başladı. 70 il ərzində Azərbaycanın aqrar sahədə inzibati amirliklə olsa da, əldə etdiyi nailiyyətlər 90-cı illərin əvvəllərində tamamilə dağıdılmışdı. Ölkədə kənd təsərrüfatı məhsullarının qıtlığı əhalinin ərzaqla təminatında böyük çətinliklər törətmişdi. Həmin dövrlə əlaqədar Heydər Əliyev demişdir: «Vəziyyət elə təhlükəli xarakter almışdı ki,…müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəçilik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan ölüm ya olum dilemması qarşısında qoyulmuşdu».[1] Odur ki, 1991-2008-ci illlərdə dövlətin aqrar siyasətinin konkret şəraitdə həyata keçirilməsi, qəbul olunan qanun və qərarların aqrar sahənin tənzimlənməsində, istiqamətləndirilməsindəki rolunun təfərrüatı ilə açıqlanması, görülən tədbirlərin nəticələri, aqrar siyasətin cəmiyyətin sosial və siyasi inkişafında rolunun elmi əsaslarla təhlil olunmaması mövzunun aktuallığını daha da artırmışdır. Problemin aktuallığı daha sonra aşağıdakı məqamlarla müəyyənləşir:

a) Hüquqi əsaslarının yaradılması tarixi baxımından aqrar islahatların həyata keçirilməsini şərti olaraq 3 dövrə (1991-1995, 1995-2003, 2003-2008-ci illər) bölmək olar. Bu mərhələlərdə aqrar islahatların gerçəkləşdirilməsinə şərait yaradan qanunvericilik aktlarının tarixi aspektdə, sistemli şəkildə araşdırılması aktuallıq kəsb edən əsas məqamdır.1991-1993-cü illərdə Azərbaycan Respublikası Ali Soveti aqrar sahədə durğunluğu aradan

---

[1] Əliyev H.Müstəqilliymiz əbədidir. 3-cü kitab, s. 41

qaldırmaq məqsədilə «Torpaq Məcəlləsi haqqında»(1991-ci il, 27 noyabr), «Kəndli (fermer) təsərrüfatlarının yaradılması haqqında» (1991-ci il, 8 aprel), «Sahibkarlıq fəaliyyəti haqqında» (1992-ci il, 15 dekabr), «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» (1993-cü il, 7 yanvar), və s[1] qanunlar və digər normativ–hüquqi aktlar qəbul etdi. Lakin ölkədə mövcud hərbi-siyasi böhran həmin qanun və qərarların həyata keçirilməsinə imkan vermədi. Bununla belə dövrün aqrar mənzərəsini öyrənmək öz aktuallığını qoruyub saxladı.

b) Ümummilli lider H.Ə.Əliyevin 1993-cü ilin iyununda ikinci dəfə respublika rəhbərliyinə qayıdışı ölkənin aqrar həyatının canlanmasına yeni impuls verdi. H.Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aqrar islahatların əsas tərkib hissəsi olan torpaq islahatlarının normativ-hüquqi bazasının yaradılması və bəzi rayonlarda (Xızı, Zaqatala, Masallı və s.) aqrar islahatların əməli olaraq həyata keçirilməsi istiqamətində tədbirlərə başlanıldı.

Araşdırmalar göstərir ki, 1995-2003-cü illərdə Azərbaycan Respublikasında aqrar sahəyə dair 100-dən artıq qanun, fərman, sərəncam, qərar və b. normativ-hüquqi aktlar qəbul olunmuşdur. Bu, aqrar islahatlar tarixində ən zəngin qanunvericilik aktlarının qəbul olunduğu illər sayıla bilər.

1995-2003-cü illərdə Azərbaycan Respublikasında aqrar sahənin inkişafına dair qəbul edilmiş qanunların və digər normativ-hüquqi aktların tarixi nöqteyi-nəzərdən elmi əsaslarla tədqiqi və yerlərdə tətbiqinin umumi nəticələri, sosial inkişafa təsiri və s. məsələlərin öyrənilməsi mövzunun seçilməsi üçün əsas olmuşdur. Aqrar islahatların ikinci mərhələsi ictimai təsərrüfatların ləğvi, yeni sistemə uyğun olan təsərrüfatçılıq formalarının yaradılması, aqrar bazarın təşəkkülü, xarici iqtisadi əlaqələrin qurulması, yeni sahibkar kəndli təbəqəsinin

---

[1] Azərbaycan Respublikası MMA: f.2941, siy,1, iş. 392, v. 231-251; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş. 397, v. 30-49; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş. 470, v. 169-185; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş. 599, v. 68-93; Azərbaycan Respublikası MMA: f. 2941, siy.1, iş. 676, v.90-95; Azərbaycan Respublikası MMA: f. 2941, siy.1, iş. 678, v.2-35; Azərbaycan Respublikası MMA: f. 2941, siy.1, iş. 682, v.1-360; Azərbaycan Respublikası MMA: f.2941, siy. 1, iş. 1284, v.108-123; Azərbaycan Respublikası MMA: f.2841, siy. 11, iş. 1296, v.139-150; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş.1004, v.125-127; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş.913, v.194-197; Azərbaycan Respublikası MMA: f. 2941, siy.1, iş. 1002, v.24-39; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş.1009, v.16-36 ; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş. 810, v 130-146 ; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş.592, v.81-87; Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş. 390, v. 1-44

təşəkkül tapması ilə başa çatdı. Aqrar islahatların uğurlarının istiqamətlərini elmi cəhətdən araşdırmaq mövzunun aktuallığını şərtləndirən məsələlərdəndir.

c) Azərbaycan Respublikasının aqrar sahəsində 1995-ci ildən başlamış torpaq islahatı çoxukladlı iqtisadiyyatın qurulmasına təkan versə də, bu sahəyə dövlətin maliyyə təminatının kifayət dərəcədə olmaması kəndlilərə verilən əmlak və torpaq payından layiqincə istifadə etməsinə əngəllər yaradırdı. Bəzi hallarda "ifrat kompaniyaçılıq" mövcud aqrar birlik və muəssisələrin dağıdılmasına və əhalinin həyat səviyyəsinin sürətlə aşağı düşməsinə gətirib çıxarmışdı. Bu isə əhali arasında narazılığın yaranmasına səbəb olmuşdu. Torpaq qanunvericiliyi aktlarının araşdırılması mövzunun aktuallığını şərtləndirən amillərdəndir.

d) Aktuallıq kəsb edən məqamlardan biri də 2003-2008-ci illərdə Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatına maddı yardım və güzəştli maliyyə dəstəyi ilə əlamətdar olan «dövlət himayəsi» siyasətinin təhlil edilməsidir. Bu siyasətin nəticəsində dövlət tərəfindən verilən dotasiyalar aqrar bölmənin 3 sahəsinə yönəldildi: infrastrukturun inkişafı, texniki-texnoloji potensialın təkmilləşdirilməsi və sahibkarlığın inkişafı. 2003-2008-ci illərdə qəbul olunan qanunların, fərmanların və digər normativ–hüquqi aktların araşdırılmasından aydın olur ki, Azərbaycan Respublikasında aqrar sahənin hər bir bölməsinə dövlət nəzarəti gücləndirilmiş və kompleks tədbirlər planı həyata keçirilmişdir. Xüsusilə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»nın qəbul olunması ölkənin aqrar bölməsində ciddi dönüş yaratdı. Yerli məhsulların xüsusi çəkisi nəzərəçarpacaq şəkildə artdı, bir sıra kənd təsərrüfatı məhsullarının ixracatında artım müşahidə olundu, hətta yerli məhsullar daxili bazarda xarici məhsullarla rəqabət aparmağa başladı. Bu isə ölkənin ərzaqla təmin olunmasında əhəmiyyətli şərtlərdən idi.

«Azərbaycan modeli» adlı yeni torpaq siyasətinin düzgün və vaxtında tətbiqi nəticəsində hal-hazırda Azərbaycan Respublikası MDB ölkələri arasında aqrar sahədə məhsuldarlıq göstəricilərinə görə ilkin yerlərdən birini tutur. Buna görə də XX əsrin sonu XXI əsrin əvvəllərində respublikada aqrar sahənin inkişaf etdirilməsinin təmin edilməsi sahəsində həyata keçirilmiş tarixi təcrübənin öyrənilməsi həm elmi, həm təcrübi və həm də metodiki baxımdan mövzunun aktuallığını şərtləndirir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın xronoloji çərçivəsi 1991-2008-ci illəri əhatə edir. Problemin bu xronoloji çərçivədə araşdırılmasının bir sıra səbəbləri vardır. Hər şeydən öncə qeyd olunmalıdır ki, məhz bu dövrdə

Azərbaycan Respublikası milli müstəqilliyini bərpa etdi və geniş tədbirlər planı ilə beynəlxalq aləmdə tanındı. Respublika Prezidenti H.Ə.Əliyevin təşəbbüsü ilə başlanan torpaq islahatları tarixinə «Azərbaycan modeli» adlı yeni bir siyasi anlayış gətirildi və bu xətt 2003-cü il tarixindən İ.H.Əliyev tərəfindən ölkə iqtisadiyyatına, xüsusilə kənd təsərrüfatına himayədarlıq siyasəti ilə davam etdirildi.

1991-2008-ci illər ərzində qəbul olunmuş qanunvericilik bazasının aqrar sahəyə tətbiq olunması nəticəsində əhalinin yerli kənd təsərrüfatı məhsulları ilə təminatında dönüş yarandı, respublikanın ərzaq təhlükəsizliyi nisbətən təmin olundu. Bu baxımdan problemin məhz göstərilən tarixi dövr üzrə tədqiqi Azərbaycanın müasir tarixşünaslığında H.Ə.Əliyevin islahatçı siyasətinin dövlət quruculuğu sahəsində istiqmətlərini düzgün qiymətləndirilməyə rəvac verir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində aqrar siyasətin formalaşdırılması, iqtisadiyyata dövlət müdaxiləsinin vacibliyi məsələləri aqrar islahatların tarixi mərhələlərində önə çəkilmiş və islahatların həyata keçirilməsində qanunvericiliyin məqsədyönlü istiqamətləri nəzərə alınaraq, aşağıdakı məqsəd və vəzifələr irəli sürülmüşdür: 90-ci illərin əvvələrində respublikada ictimai-siyasi gərginlik nəticəsində törəyən iqtisadi böhranın ölkə iqtisadiyyatının əsas sahəsi olan aqrar sahəyə təsirini, problemləri, çətinlikləri və onların səbəblərini araşdırmaq; Əhalinin yerli ərzaqla təchiz olunmasını təşkil etmək üçün dövlətin bütün qüvvələrinin səfərbərliyə alınması istiqamətində görülmüş tədbirlərin araşdırılması və ümumiləşdirilməsi; Yeni iqtisadi sistemə keçid şəraitində dövlətin qanun və qərarlar əsasında aqrar islahatlar yolunda müəyyənləşdirdiyi istiqamətləri araşdırmaq; Azərbaycan Respublikasında həyata keçirilmiş aqrar islahatlar tarixində beynəlxalq layihələrin rolunu qiymətləndirmək; MDB ölkələri arasında ilk dəfə olaraq Azərbaycan Respublikası ərazisində başlamış aqrar islahatların qısa müddətdə dinamik inkişafla əvəz olunması və əhalinin ərzaqla təminatında sabitliyə nail olunması yollarını MDB ölkələrinin aqrar təcrübəsi ilə müqayisədə araşdırmaq; Ölkədə həyata keçirilmiş islahatlar dövründə qanunvericilikdəki nöqsan və boşluqlardan irəli gələn problemləri müəyyənləşdirmək və onların aradan qaldırılmasında, xüsusilə kənd təsərrüfatının başlıca sahələri olan pambıqçılığa, üzümçülüyə, çayçılığa olan biganə münasibətin aradan qaldırılmasında H.Ə.Əliyevin prinsipial rolunu işıqlandırmaq; Mühüm iqtisadi və sosial vəzifələrin həlli üçün geniş imkanlar açan aqrar siyasətin sürətləndirilməsində İ.H.Əliyevin yeritdiyi siyasi xəttin nəticəsi olaraq, əhalinin sosial fəallığının artması, sosial-iqtisadi münasibətlərin təkmilləşməsi,

dövlət-kəndli münasibətlərinin nizama salınması və s. məsələləri konkret statistik faktlar və rəqəmlər əsasında tədqiq etmək, mövcud olan problemləri araşdırmaq və Azərbaycan dövlətçiliyi qarşısında duran ən vacib məsələləri ümumiləşdirmək və s.

**Problemin tədqiqi səviyyəsi**. Dissertasiya işi ilk dəfə olaraq Azərbaycan dövlətinin müstəqil aqrar siyasət tarixinin kompleks araşdırılmasına həsr olunmuşdur. «Azərbaycan Respublikasının aqrar siyasəti (1991-2008-ci illər)» problemi vətən tarixində indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Qeyd olunmalıdır ki, tədqiq olunan dövr üzrə Azərbaycan Respublikasında aqrar siyasət məsələlərinin bu və ya digər istiqamətləri iqtisadçı və tarixçi alimlər tərəfindən öyrənilsə də, dissertasiyada qoyulan problem kompleks şəkildə tədqiq edilməmişdir.

Aqrar sahədə həyata keçirilən siyasəti əks etdirən iqtisadi ədəbiyyat çox geniş olduğundan biz bilavasitə tədqiqat mövzusuna aid olan əsərlərə müraciət etməyə üstünlük vermişik. Aqrar qanunvericiliyin inkişafı problemlərinə E.İbrahimov, A.Vəliyev, M.Rəhimov, ölkədə aqrar sahənin inkişafı məsələlərinə İ.İbrahimov, V.Niftullayev, Z.Səmədzadə, Ə.Əlirzayev, aqrar sahənin dövlət tənzimlənməsi problemlərinə S.Salahov, R.Balayev, İ.Əliyev, K.Sadıqov, D.Vəliyev, A.Nadirov, Mehdiyev R. Məmmədov A.Y, torpaq islahatları ilə bağlı olan bir sıra məsələlərə Q.Məmmədov, İ.Alıyev və başqaları elmi əsərlər həsr etmişlər.[1]

---

[1] Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı:XXI-Yeni Nəşrlər Evi, 2005; Yenə onun: Azərbaycan Respublikası 1991-2001. Bakı: Elm, 2002; yenə onun: Gələcəyin strategiyasını müəyyənləşdirərkən:modernləşdirmə xətti. / «Xalq» qəz.,2008,16 yanvar; Yenə onun: Azərbaycanın inkişaf dialektikası. Bakı: Azərbaycan Milli Ensiklopediyasının nəşriyyatı, 2000; İbrahimov İ. Aqrar iqtisadiyyatın əsasları. Bakı: Səda, 2003; Yenə onun: Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: Təhsil- Elm, 2002; Yenə onun: Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2005; yenə onun: Sahibkarlığın formalaşdığı şəraitdə kənd təsərrüfatının spesifik xüsusiyyətlərinin nəzərə alınmasının əhəmiyyəti. // Azərbaycan Aqrar elmi, Bakı: 2001, № 4-6; Rüstəmov R.Aqrar sahənin davamlı inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri: İqt. elm.nam… dis. Bakı: 2007; Rəhimov M. Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar (1991-1995-ci illər). Bakı: Azərbaycan, 1996; Salahov S.V. İslahatların və aqrar iqtisadiyyatın tənzimlənməsinin Azərbaycan modeli / «AETKTİ və Tİ-da aqrar islahatların ilkin nəticələri və perspektivləri» mövzusunda respublika elmi-praktiki konfransının materialları. Bakı: Təhsil NPM, 2003; Yenə onun: Azərbaycan

T.R.Nəcəfovanın, V.Nəzərovun, V.Niftullayevin, Ə.Q.Əlirzayevin, Q.H.Manafovun, M.A.Əhmədovun, Z.Əhmədovun, M.T.Əliyevin əsərləri sahibkarlığın inkişafı problemləri, mili iqtisadiyyatın formalaşması istiqamətləri, azad iqtisadi münasibətlərin qurulması, aqrar sahədə aparılan islahatların sosial nəticələri kimi aktual və zəruri məsələlərin öyrənilməsinə həsr edilmişdir.[1]

Naxçıvan MR-nın sosial-iqtisadi inkişafı, sosial strukturunda dəyişikliklər, kənd təsərrüfatında həyata keçirilən kompleks tədbirlər və onların nəticələri ilə bağlı Ə.Baxşəliyev, V.Quliyev, N.H.Əhmədov, M.Y.Məmmədov və bir sıra başqa müəlliflərin əsərlərindən istifadə olunmuşdur.[2]

---

Respublikasında aqrar islahatların dərinləşməsi və sahibkarlığın dəstəklənməsinin elmi təminatının əsas istiqamətləri. /AzETKTİ və Tİ, beynəlxalq konfransın materialları. Bakı, 2001; Yenə onun: Aqrar sahənin tənzimlənməsi problemləri. Bakı: Nurlar, 2004; Bayramov V. Azərbaycan MDB ölkələri arasında ÜDM-in artımına görə liderlər sırasındadır. /«Xalq» qəz.., Bakı, 2009, 20 avqust; Cəfərli E. Azərbaycanın ərzaq təhlükəsizliyi proqramı hazırdır. /«Yeni Azərbaycan» qəz.., Bakı, 2008, 5 avqust; Yenə onun: Regionların inkişafı ilə bağlı yeni Dövlət Proqramının icrasına başlanıb. /« Xalq» qəz.., Bakı, 2009, 27 may; Cəfərov C.M. 1920-1930-cu illərdə kənd təsərrüfatının kollektivləşməsi prosesi Azərbaycan reallığında. // Bakı Universitetinin Xəbərləri, 2008, №4; Məmmədov Q. Heydər Əliyev. Torpaq islahatları reqonların sosial-iqtisadi inkişafının əsasıdır. Bakı, 2008; Yenə onun: Azərbaycanda Torpaq islahatı hüquqi və elmi-ekoloji məsələlər. Bakı: Elm, 2002; Səmədzadə Z. Dünya iqtisadiyyatı. Bakı: Nurlar, 2001; Yenə onun: Bu il Azərbycanda ÜDM-in artım sürəti dünya üzrə göstəricidir. /«Xalq» qəz.., Bakı, 2009, 16 yanvar.

[1] Əlirzayev Ə.Q. İslahat və sürətləndirmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı: Adiloğlu nəşriyyyatı, 2005; Yenə onun: Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı: Elm, 2000; Nəcəfova T.R. Azərbaycanda sahibkarlığın inkişafı və yeni iş yerlərini yaradılmasının bəzi problemləri. // AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası (iqtisadiyyat), Bakı: 2006, №1; Nəzərov V. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi: problemlər, perspektivlər. // «Dirçəliş» jurnalı, Bakı: 2008, № 122-123; Niftullayev V. Bazar iqtisadiyyatında hansı modeli üstün tutmalıyıq? /«Azərbaycan» qəz.., Bakı: 1993, 12 avqust; Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Nurlar, 2002

[2] Baxşəliyev Ə.Naxçıvan Muxtar Respublikası iqtisadi islahatlar şəraitində. /Dirçəliş-XXI əsr,1998,№21-22; Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm2005; Məmmədov M.Y. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi

Sovet hakimiyyəti illərində tarixşünaslığımızda Azərbaycanın kənd təsərrüfatına aid H.T.Əmirov, Q.B.Allahverdiyev,T.B.Qaffarov,Ə.H.Haciyev və başqaları xeyli əsərlər yazmışlar.[1]

Dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə Azərbaycan tarixşünaslığında yeni iqtisadi sistemə keçid dövründə yaranmış ictimai-siyasi ziddiyyətlər şəraitində, 90-cı illərin ikinci yarısından etibarən aqrar sahənin tarixinə tarixçi baxışını əsk etdirən bir sıra tədqiqat əsərləri işıq üzü gördü. Lakin bu əsərlərdə tədqiq olunan dövrlə bağlı olan mülahizələr və faktlar eyniyyət təşkil edir. İ.Zeynalovun, N.Süleymanovun, Ə.Məmmədovun, İ.Hüseynovanın, T.Xəlilovanın, R.Əkbərovun, S.Səlimovun, A.Həsənovun, T.Qaffarovun, O.Sultanovun, A.Balayevin, İ.Hacıyevin, Ə.Q.Qasımovun və başqalarının əsərlərində müstəqillik dövründə Azərbaycan Respublikasında ictimai-siyasi vəziyyət, H.Əliyevin inkişaf strategiyasının müxtəlif istiqamətləri, dövlətin aqrar siyasət xətti və bu tarixin müxtəlif dövrləri araşdırılmış və maraqlı mülahizələr, müddəalar irəli sürülmüşdür. Lakin bu əsərlərdə obyektiv olaraq problemə kompleks yanaşılmamışdır.[2]

---

proseslər. (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005; Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000; Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illər ərzində. Naxçıvan: 2001; Naxçıvan Statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı: 1999; Quliyev V. Naxçıvan Muxtar Respblikasında üzümçülük: imkanlar, perspektivlər. «Xalq» qəz.., Bakı, 2006, 22 iyul

[1] H.T.Əmirov. Azərbaycan SSR-in kənd təsərrüfatı 60-80-ci illərdə. Bakı: Elm, 1989; yenə onun: Geniş tərəqqi yollarında. Bakı:Elm, 1981; T.B.Qaffarov. Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi. Bakı: Elm, 1986; Ə.H.Hacıyev. Kənd təsərrüfatında maddi və mənəvi maraq. Bakı: Elm, 1983; A.A.Махмудов.Сельское хозяйство Азербайджанской ССР на крутом подьеме. Баку: Елм, 1980; Q.B.Allahverdiyev. Azərbaycan kəndinin sosial inkişafı. Bakı: Elm, 1981; Ş.A.Haqverdiyev. Sov.İKP-nin müasir aqrar siyasətinin Azərbaycan SSR-də təntənəsi. Bakı: Elm,1982; Yenə onun: Aqrar siyasət Sov.İKP siyasi xəttinin mühüm tərkib hissəsidir. Bakı: Elm, 1975.

[2] Məmmədov Ə.Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1980-ci illərin sonu-1997): Tarix elm. dok…. dis. Bakı: 2004; Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər): Tarix elm. dok…. dis. Naxçıvan: 2011; Balayev A. Azərbaycanda ictimai-iqtisadi və siyasi vəziyyət. Bakı: Nurlan, 2005; Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu: Tarix elm.dok…. dis. Bakı: 2003 Piriyev. H.Ə., Piriyev İ.H. Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri. 1991-2001-ci illərin

XX əsrin ikinci yarısından etibarən respublikamızın ictimai-iqtisadi inkişafı sahəsindəki vəziyyətin öyrənilməsində İ.Zeynalovun «Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında» əsəri Azərbaycan tarixşünaslığında əhəmiyyətli yer tutur. Tədqiqat əsərində müharibədən sonrakı dövrdə-1946-2004-cü illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı tarixi mərhələlərə bölünməklə elmi və statistik əsaslarla ümumiləşdirilmişdir.

N.Süleymanovun «Azərbaycanın iqtisadi tarixi» əsərində ölkənin qədim dövrdən 2000-ci ilədək başlıca iqtisadi inkişaf mərhələləri sistemli şəkildə təhlil olunmuşdur. Burada aqrar sahə iqtisadiyyatın bir bölməsi kimi araşdırılmış və faktik materiallar əsasında təhlil olunmuşdur. Əsərdə 90-cı illərin əvvəllərində aparılan aqrar islahatlar tarixi qısa məlumat səciyyəlidir və xronoloji baxımdan 1999-cu ilin nəticələri ilə yekunlaşdırılmışdır.

T.Xəlilovanın «Azərbaycan 90-cı illərdə: iqtisadi islahatların tarixi» monoqrafiyasında əski sovet sistemindən bazar iqtisadiyyatı sisteminə keçidin başlıca xüsusiyyətləri araşdırılmış, torpaq-hüquq münasibətlərinin qısa tarixi və kənd təsərrüfatının 1999-cu ilədək inkişafı məsələləri açıqlanmışdır. Bu monoqrafiyada aqrar islahatların qanunvericilik məsələləri geniş işıqlandırılmamış, aqrar sahənin problemləri önə çıxarılmamışdır.

Ə.Məmmədovun[1] doktorluq dissertasiyasında Sovet İttifaqının dağılması ərəfəsindən başalyaraq 1997-ci ilədək respublikanın bütövlükdə ictimai-siyasi həyatında baş verən hadisələrlə bağlı problemlər hərtərəfli araşdırılmışdır. Burada aqrar sahə ayrıca bölmə kimi təqdim edilmiş, paraqraflar üzrə öyrənilmiş problemlər ümumiləşdirilmiş nəticələrlə verilmişdir. Ölkədə aqrar islahatların həyata keçirilməsində qanunvericilik məsələlərinə toxunulsa da, problemə yanaşma birtərəfli olmuşdur.

İ.Hüseynovanın «Müstəqil Azərbaycan dövlətinin yaranması və

---

iqtisadiyyatının 1980-1988-ci illərlə müqayisəli statistiki göstəricilərin təhlili və tədqiqatı. Bakı: Azərnəşr, 2001; Zeynalov İ. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı: BDU nəşriyyatı, 1996; Yenə onun: Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı: Azərnəşr, 2004; Yenə onun: Azərbaycanın sosial-iqtisadi inkişafında dövlət proqramı. // Bakı Universitetinin Xəbərləri, Bakı: 2005, №4; Yenə onun: Azərbaycanda aqrar bölmənin inkişafında neft amilinin rolu. //Tarix və onun problemləri, Bakı: 2007, №2; Qaffarov T.Azərbaycan tarixi.1920-1991. Bakı: 1999; Sultanov O.B. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı: Maarif, 1995, Süleymanov N. Azərbaycanın iqtisadi tarixi. Bakı: Elm, 2001.

[1] Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1980-ci illərin sonu-1997-ci il. Bakı:2003.

möhkəmləndirilməsində H.Əliyevin rolu» adlı doktorluq dissertasiyasında ölkənin həm sosial-iqtisadi, həm də milli mənəvi inkişafı tarixində H.Ə.Əliyevin siyasi fəaliyyətinin bir sıra cəhətləri araşdırılmışdır. Bu əsər ulu öndərin inkişaf strategiyasının ayrı-ayrı istiqamətlərini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır.

Bəxtiyar Nəbiyevin[1] 1969-1982-ci illərdə Heydər Əliyevin respublikanın iqtisadi, siyasi və milli mənəvi tarixindəki fəaliyyətinə həsr etdiyi dissertasiya işi araşdırdığımız problemin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir. Əsərin təhlili ulu öndərin 90-cı illərin ikinci yarısında respublikada apardığı torpaq siyasəti tarixində qazanılmış uğurlarının səbəblərini dərk etməyə imkan verir.

Ə.Q.Qasımovun[2] doktorluq dissertasiyasında 1969-cu ildən 2003-cü ilədək Naxçıvan MR-də baş verən hadisə və proseslər geniş işıqlandırılmışdı. Təsadüfi deyil ki, H.Əliyev öz torpaq islahatlarına məhz bu ərazidə start vermiş və əldə olunan nəticələrdən razı qalaraq, bütövlükdə respublika ərazisində bu islahatlara başlamaq göstərişini vermişdir. Tarixşünaslığımızda ilk dəfə olaraq bu əsərdə Azərbaycan regionlarının inkişaf strategiyası Naxçıvan MR-in materialları əsasında öyrənilmişdir. Bu baxımdan problemin öyrənilməsində əsərin mühüm əhəmiyyəti vardır.

A.Balayevin «Azərbaycanda ictimai-iqtisadi və siyasi vəziyyət» adlı əsərində XX əsrin 80-90-cı illərində Azərbaycanda aqrar məsələlərə də toxunulmuşdur. Burada sovet dövründə və müstəqillik illərində Azərbaycanda aqrar bölmənin inkişaf səviyyələrinin müqayisəli təhlili böyük maraq doğurur və bu müqayisəli təhlil təqdim olunan tədqiqat işinin yazılmasında əhəmiyyətli rol oynamışdır.

H.Ə.Piriyevin və İ.H.Piriyevin «Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri» adlı əsərində 1980-2001-ci illərdə Azərbaycan iqtisadiyyatının bütün məsələləri (ümumi daxili məhsul, dövlət büdcəsi, əhalinin ictimai rifahı, yüngül sənaye sahəsinə sərmayə qoyuluşları) araşdırılmış və müvafiq cədvəllərlə əsaslandırılmışdır. Əsərdə ölkənin aqrar sahəsinin 1991-2001-ci illərinin statistik göstəriciləri 1980-1988-ci illərin statistik göstəriciləri ilə müqayisəli şəkildə təhlil edilir. Bu müqayisəli təhlil

---

[1] Nəbiyev B. Heydər Əliyev və Azərbaycan SSR-nin iqtisadi inkişafı (1969-1982-ci illər). Tarix elmləri namizədi dis., avtoref.Bakı:2007.

[2] Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər): Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün Naxçıvan-2011.

problemin öyrənilməsində bizə əhəmiyyətli dərəcədə kömək etmişdir.

İ.Əiyevin «Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı» adlı əsərində XX yüzilliyin ikinci yaısında Azərbaycan kənd təsərrüfatının inkişaf xüsusiyyətləri, regionların inkişaf strategiyası nəzərdən keçirilmiş, bölgələrin inkişafını özündə əks etdirən statistik göstəricilər və rəqəmlərlə aqrar sahədə aparılmış islahatların gedişi və ilkin nəticələri təqdim olunmuşdur.

Müəllifin digər monoqrafiyasında[1] qədim dövrdən 2003-cü ilədək Azərbaycanın kənd təsərrüfat tarixinin şərhi verilmiş, ölkənin aqrar islahatlar tarixində H.Əliyevin fəaliyyəti və rolu geniş işıqlandırılmışdır. Əsər Heydər Əliyevin Azərbaycanda II hakimiyyəti dövründə həyata keçirdiyi torpaq islahatları tarixinin öyrənilməsi baxımından əhəmiyyət kəsb etsə də, monoqrafiyada qoyulan məsələ tədqiqat xarakteri daşımır.

Yuxarıda sadalanan tarixi ədəbiyyatların təhlili göstərir ki, öyrəndiymiz mövzu tarix elmində başlıca tədqiqat obyekti kimi seçilməmiş, yeni iqtisadi sistemin təşəkkül tapdığı dövrdə – 1991-2008-ci illlər çərçivəsində nə iqtisadi, nə də siyasi nöqteyi-nəzərdən aqrar siyasət tarixi kompleks şəkildə araşdırılmamış, torpaq islahatları və bu islahatların hüquqi bazasının təhlili, dövlət tənzimlənməsi siyasətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı tarixinə verdiyi müsbət nəticələr və əhalinin ərzaqla təminatı məsələrində təşkilati-huquqi cəhətlər açıqlanmamış, xüsusilə əhalinin ərzaqla təminatı məsələlərində aqrar sahənin inkişaf istiqamətləri, aqrosənaye və qloballlaşma məsələləri hələ indiyə qədər öyrənilməmiş, respublikada ərzaq təhlükəsizliyi strategiyasının əsasını qoymuş H.Ə.Əliyevin və bu strategiyanı uğurla həyata keçirən İ.H.Əiyevin Azərbaycanın aqrar siyasət tarixindəki rolu lazımi səviyyədə işıqlandırılmamışdır. Qeyd olunmalidır ki, məhz dissertasiyada qarşıya qoyulan əsas vəzifələrdən biri də aqrar siyasətin həyata keçirilməsində H.Ə.Əliyevin və respublika Prezidenti İ.H.Əiyevin fəaliyyətinin əsaslı şəkildə öyrənilməsi olmuşdur.

Tarixən Azərbaycan aqrar və aqrar –sənaye ölkəsi olmuşdur və qloballaşan mühitdə müasir aqrar siyasət tarixinin öyrənilməsi, bu sahədə mövcud olan obyektiv və subyektiv çətinliklərin araşdırılması üçün bir sıra elmi təhlillərin aparılması aktuallıq kəsb edən amillərdəndir. Qeyd olunmalıdır ki, «Azərbaycan Respublikasının aqrar siyasəti (1991-2008-ci illərdə)» mövzusunda tədqiqat işi vətən tarixşünaslığında ilk dəfə olaraq tarixi faktlar, arxiv sənədləri və müstəqil ekspertlərin rəyləri əsasında kompleks şəkildə

---

[1]Алиев И. Исторические этапы сельского хозяйства Азербайджана и перспективы его развития. Баку: Ишыг, 2004

aparılmışdır. Araşdırma nəticəsində aydın olmuşdur ki, XX əsrin ikinci yarısı XXI əsrin əvvəllərində Azərbaycan Respublikasında aqrar sahədəki problemlərin aradan qaldırılması, əhalinin ərzaqla təminatının müasir tələblərə uyğunlaşdırılması və sabit iqtisadi şəraitin yaradılması H.Ə.Əliyevin və onun davamçısı olan İ.H.Əliyevin fədakar fəaliyyətinin nəticəsidir. Qeyd olunanları və aqrar islahatların Azərbaycanın siyasi və sosial-iqtisadi tarixində rolunu nəzərə alaraq, bu problem dissertasiya mövzusu kimi seçilmişdir.

**Tədqiqatın mənbə bazası.** Tədqiq olunan mövzunun mənbə bazasını H.Ə.Əliyev və İ.H.Əliyevin əsərləri təşkil edir.[1] Həmin əsərlərdə planlı sovet iqtisadiyyatından bazar iqtisadiyyatına keçən Azərbaycan dövlətinin həyata keçiridiyi siyasi və iqtisadi islahatların mahiyyəti, aqrar sahənin inkişaf etdirilməsi sahəsində Respublika rəhbəriliyinin məqsədyönlü fəaliyyəti və bu fəaliyyətin nəticələri, dövlət siyasətinin əsas istiqamətləri, qanunvericilikdəki yeniliklər, həmin qanunların yerlərdə icrası və s. məsələlər öz əksini tapmışdır.

«Heydər Əliyev və dövlətin aqrar siyasəti»[2] əsəri problemin araşdırılması baxımından yüksək qiymətləndirilməlidir. Araşdırılan dövrdə aqrar islahat tarixinin qanunvericilik aktları ilə uzlaşdırılaraq tədqiq olunması Azərbaycanın müasir tarix elmi üçün çox əhəmiyyətlidir. Bu baxımdan tədqiqat işinin gedişində mövzu ilə bağlı 90-cı illərin əvvəllərində qəbul olunmuş qanunvericilik aktlarının təhlili üçün Azərbaycan Respublikası Milli Məclisinin və Dövlət Statistika Komitəsinin cari arxiv sənədlərindən geniş istifadə olunmuşdur. Araşdırma prosesində həmçinin dövri mətbuat materiallarından, müxtəlif statistik məcmuələrdən, müstəqil ekspert rəylərindən mövzu ilə bağlı məsələlərə aydınlıq gətirmək üçün istifadə olunmuşdur. Dissertasiya işinin informasiya bazasını Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin məlumatları və

---

[1] Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı:Azərnəşr,1981; Əliyev H.Ə. Mədəni irsimizin keşiyində. 2 cilddə.Bakı: 2001; Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2001; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çoxcildlik, Bakı: Azərnəşr, 1997, 2010; Əliyev H.Ə. Müstəqillik yollarında. 4 cilddə. Bakı: 1997; Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində.V cilddə. Bakı: Azərnəşr, 1997, 2001; Əliyev İ.H. Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram. Bakı: Gənclik, 2001

[2] «Heydər Əliyev və dövlətin aqrar siyasəti»

Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun tədqiqat materialları təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin metodoloji əsasını tarixi hadisələrlə obyektiv və məntiqi yanaşmanı nəzərdə tutan tarixilik prinsipi təşkil edir. Azərbaycan Respublikasının qanunları, Respublika Prezidentinin imzaladığı fərmanlar, sərəncamlar və digər normativ-hüquqi aktlar, ekspert rəyləri və tövsiyələri təqdim olunan tədqiqatın işinin metodoloji əsaslarına aiddir. Dissertasiya işinin yerinə yetirilməsində ümumiləşdirmə, statistik təhlil və müqayisə üsullarından istifadə olunmuşdur.

**Tədqiqat işinin elmi yeniliyi**. Dissertasiya işi Sovet imperiyasının dağılmasından sonra siyasi çaxnaşmaların iqtisadi böhranla üzləşdıyı bir şəraitdə Azərbaycanın aqrar bölməsindəki vəziyyətin araşdırılmasına, 1993–cü ilin ikinci yarısından ölkəyə ikinci dəfə rəhbərlik etməyə başlamış H.Ə.Əliyevin aqrar siyasət tarixinə gətirdiyi yeni «Azərbaycan» torpaq modelinin qanunvericilik aktları ilə uzlaşdırılmasına və aqrar sahədə əldə edilmiş dinamik inkişaf istiqamətlərinin kompleks halda faktiki materiallar əsasında tədqiq olunmasına həsr olunmuşdur.

Tədqiqat işinin əsas elmi yeniliklərindən biri ondan ibarətdir ki, qanunvericilik aktları dövlətin yeritdiyi aqrar siyasətin gerçəkləşdirilməsi üçün vasitə kimi seçilmiş və Azərbaycan Respublikasında aqrar islahatların tarixilik prinsiplərinin araşdırılmasında qanunvericiliyin zəruriliyi əsaslandırılmışdır. Bundan əlavə, dissertasiyada Azərbaycan dövlətinin milli siyasətində qarşıya qoyulmuş əsas strateji xəttin (əhalinin yerli ərzaq məhsullarına tələbatının sabit və davamlı surətdə təminatı) istiqamətləri və görülən tədbirlərin nəticələri araşdırılmışdır. Ümumilikdə, dissertasiya işində əldə edilmiş yeniliklərə aşağıdakıları aid etmək olar: 90-cı illərin əvvəllərində respublikada aqrar sahənin bazar münasibətlərinə uyğunlaşdırılması prosesi izlənmiş, meydana çıxmış problem və çətinliklərin səbəbləri sistemli şəkildə araşdırılmışdır; Azərbaycanın aqrar sahəsindəki durğunluğun aradan qaldırılmasında H.Ə.Əliyev tərəfindən irəli sürülmüş «Azərbaycan» torpaq modelinin dünya təcrübəsindən fərqləndirici xüsusiyyətləri tədqiq olunmuşdur; Azərbaycan Respublikasında aqrar siyasətin həyata keçirilmə mərhələləri, istiqamətləri və qanunvericilik bazasının yaradılması xüsusiyyətləri qiymətləndirilmişdir; Respublika üzrə islahatların aparılmasının ictimai-iqtisadi nəticələri və inkişaf meylləri 1991-2008-ci illər ərzində statistik materiallar əsasında tədqiq edilmişdir; Aqrar islahatların umumi nəticələri MDB ölkələrində aparılmış aqrar islahatların nəticələri ilə müqayisəli təhlil olunmuşdur; Azərbaycan Respublikasında aqrar siyasətin formalaşdırılması ilə əlaqədar olaraq qəbul

edilmiş qanunların yerlərdə tətbiqi və nəticələri müəyyənləşdirilmiş, qanunvericilikdəki nöqsan və boşluqlar, aqrar sahədə görülən bəzi tədbirlərin ləngidilməsi səbəbləri araşdırılmışdır; Azərbaycan Respublikasında islahatların aparılmasında beynəlxalq layihələrin dəstəyi və bu sahədə əldə olunmuş təcrübə və nəticələr müəyyənləşdirilmişdir; Respublikada aqrar siyasətin regional xüsusiyyətləri konkret faktlarla müəyyənləşdirilmişdir; Ölkədə aqrar islahatların sürətləndirilməsində dövlətin aparıcı rolu qiymətləndirilmiş, əhalinin ərzaqla tam təminatı məsələlərində dövlətin qarşısında duran problemlərə dair müvafiq təkliflər irəli sürülmüşdür və s;

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertatiya işində irəli sürülmüş təkliflərdən, əldə olunmuş elmi nəticələrdən: Azərbaycanın ümumiləşdirilmiş iqtisadi tarixinin yazılmasında istifadə etmək mümkündür; Azərbaycanın kənd təsərrüfatı tarixinin yazılmasında əhəmiyyətli ola bilər; Respublikanın ərzaq təhlükəsizliyinə təsir göstərən daxili və xarici amillərin istiqamətlərinin müəyyənləşdirlməsində dövlət orqanları üçün faydalı ola bilər; Tədqiqat işindən kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması prosesində, ali tədris müəssisələrində, elmi-tədqiqat işlərində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi Bakı Dövlət Universitetinin «Azərbaycan tarixi (humanitar fakültələr üzrə)» kafedrasında yerinə yetirilmişdir. Tədqiqatçı mövzu ilə bağlı olaraq bir sıra elmi jurnallarda elmi məqalələrlə, fakültədə və kafedralarda təşkil olunmuş seminarlarda, o cümlədən elmi konfranslarda Azərbaycan Respublikası üçün aktuallıq kəsb edən, aqrar islahatlar tarixinə dair əhəmiyyətli məruzələrlə çıxış etmişdir. Dissertasiyanın başlıca müddəaları müəllifin nəşr olunmuş 9 elmi məqaləsində öz əksini tapmışdır.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti, xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın "XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda aqrar sahədə vəziyyət:problemlər, çətinliklər" adlı birinci fəsli iki yarımfəsildən ibarətdir. "Ölkədəki ictimai-siyasi durumun aqrar bölməyə təsiri" adlanan birinci yarımfəsildə XX əsrin 80-cı illərinin sonunda SSRİ-də başlanan ictimai-iqtisadi və siyasi proseslərin Azərbaycana təsiri məsələləri araşdırılmışdır. Yarımfəsildə həmçinin Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışına qədər ölkədaxili münasibətlər və xarici amillər şərh edilir, ictimai-siyasi və iqtisadi həyatın sabitləşməsi üçün H.Əliyevin genişmiqyaslı fəaliyyəti konkret faktlarla təqdim olunur.

Fəslin ikinci yarımfəsli "Aqrar islahatların keçirilməsinə hazırlıq və görülən ilk tədbirlər" adlanır. Burada göstərilir ki, 90-cı illərin əvvəllərinə doğru daxili bazarda əhalinin tələbatını ödəyə biləcək istehsalın olmaması, inflyasiya, ölkə daxilində ictimai-siyasi gərginlik və s. səbəblər üzündən kənd təsərrüfatında istehsal ən aşağı səviyyəyə düşmüş və Azərbaycan artıq kənd təsərrüfatı məhsullarını idxal edən ölkəyə çevrilmişdi. Kənd təsərrüfatına sərmayə qoyuluşları xeyli azalmışdı. Belə ki, 1990-cı ilə nisbətən 1995-ci ildə kənd təsərrüfatına kapital qoyuluşu 14%-dən 1,9%-ə enmişdi.[1]

1990-cı ildə tərəvəzçilikdə məhsuldarlıq bir hektarda 200 sentner idisə, 1992-ci ildə 167 sentnerə, 1995-ci ildə isə 153 sentnerə qədər azalmışdı.[2] 1994-cü ildə respublikada üzümçülüklə məşğul olan 425 təsərrüfatdan yalnız ikisində üzüm tədarükü planı yerinə yetirilirdi.[3] Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 1988-cü ildən etibarən quşçuluq istisna olunmaqla, heyvandarlığın bütün sahələrində azalma müşahidə olunmuşdur.[4] 90-cı illərin

---

[1] Əliyev İ.N. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərnəşr, 1997, s. 59.

[2] Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri.//Respublika elmi-praktik konfransının materialları. Bakı:Elm, 2006, s. 69.

[3] Yenə orada, s. 192.

[4] Azərbaycan iqtisadiyyatı. İ.H.Alıyev, S.A.İbrahimovun redaktorluğu ilə. Bakı: Elm, 1998, s.154.

ortalarına doğru bu proses daha da sürətlənmişdi. Aqrar sahənin belə ağır vəziyyətə düşməsinin başlıca səbəblərindən biri də müstəqilliyin ilk illərindən respublika əhalisinin bazar münasibətləri barədə aydın, real təsəvvürlərinin olmaması, yeni iqtisadi sistemin mahiyyətinin əhaliyə lazımi dərəcədə izah olunmaması, «dərhal bu sistemə keçid» etmək şüarı ilə iqtisadi və siyasi idarəetmənin tamamilə nəzarətsiz buraxılması idi. Ən dəhşətlisi isə o idi ki, respublikanın 70-80-cı illərdə yaradılmış istehsal bazası tamamilə dağıdılmışdı. Bu itkilərin yerini doldurmaq isə heç də asan məsələ deyildi.

1991-ci il oktyabrın 18-də Azərbaycanda qəbul edilmiş Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ölkədə iqtisadi islahatların başlanması üçün hüquqi zəmin yaratdı. Respublikada 1991-1993-cü illərdə «təcili» iqtisadi islahatlar aparılması üçün xüsusi komissiya yaradıldı.[1]

1991-1993-cü illər ərzində Azərbaycan Respublikası Ali Soveti aqrar islahatların başlanması üçün bir sıra qanun və qərarlar qəbul etdi: «Torpaq Məcəlləsi haqqında» ( 1991-ci il, 27 noyabr), «Torpaq islahatı haqqında» (1992-ci il 18 noyabr), «Torpaq vergisi haqqında» (1993-cü il, 2 fevral), «Kəndli (fermer) təsərrüfatlarının yaradılması haqqında» (1991-ci il, 8 aprel), «Sahibkarlıq fəaliyyəti haqqında» (1992-ci il, 15 dekabr) və s.[2]

Azərbaycan Respublikası Milli Məclisinin 1991-1993-ci illərdə qəbul etdiyi qanun və qərarlar aqrar sahənin inkişafında hüquqi əsaslar yaratdı. Lakin qanun və qərarların bir çox hallarda formal səciyyə daşıması, onların icra mexanizmindəki boşluqlar və ziddiyyətli siyasi məqamlar islahatların həyata keçirilməsinə real hüquqi şərait yaratmamışdı. Ölkənin daxili bazarı demək olar ki, əcnəbi istehsalçıların keyfiyyətsiz «ərzaq piştaxtasına» çevrilmişdi. Aqrar islahatlara hazırlıq görülmədən, yeni mülkiyyət münasibətlərinə və sahibkarlıq fəaliyyətinə iqtisadi şərait yaradılmadan ölkədə bazar münasibətlərini inkişaf etdirmək mümkün deyildi. Azərbaycan hakimiyyətinin gördüyü müəyyən tədbirlərə baxmayaraq, 1991-ci ildən etibarən ümumi daxili məhsulda enmə posesi başlandı.[3] Dövləti iqtisadiyyatdan uzaqlaşdıran siyasətin nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı 1991-ci ildə

---

[1] Babayev F.F. Kənd təsərrüfatı məhsullarının ixracının artırılması istiqamətləri.// AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası (iqtisadiyyat), Bakı, 2006, №1, s.352.

[2] Rəhimov M.Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar (1991-1995-ci illər). Bakı: Azərbaycan, 1996, s. 23

[3] Azərbaycanın sosial-iqtisadi həyatı (1995-1999). Bakı, 1999, s.17.

100%-dən, 1993-cü ildə 65%-ə, 1994-cü ildə isə 56%-ə qədər azalmışdı.[1]

Hələ 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmiş H.Ə.Əliyev burada rəhbərliyə başladığı ilk günlərdən MR-nın aqrar sahəsində olan vəziyyətlə tanış olur,ilk dəfə aqrar sahədə dönüş yaratmaq üçün göstərişlər vermişdi. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi ərazidə aqrar islahatların keçirilməsinə dair iki qərar qəbul etdi :«Zərərlə işləyən kolxoz və sovxozlar haqqında» və «Rentabelli işləyən kolxoz və sovxozların mal-qarasının özəlləşdirilməsi haqqında». Qərarlara uyğun olaraq bir neçə dağ kəndində ilk sınaq tədbirləri həyata keçirilməyə başlandı.[2] Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul olunmuş bu qərarlar mülkiyyət münasibətlərinin dəyişdirilməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq aqrar islahatların aparılması üçün ən zəruri hüquqi baza yaratmış ilk tarixi sənədlər oldu.

Dissertasiyanın "Aqrar siyasətin hüquqi əsaslarının yaradılması» adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. "Torpaq islahatlarının hüquqi və siyasi əsasları"adlanan birinci yarimfəsildə torpaq islahatlarının hüquqi bazasının hazırlanma prosesi araşdırılmış, "Aqrar islahatların əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında", "Torpaq vergisi haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq Məcəlləsi" haqqında və s. qanunların Azərbaycanın kənd təsərrüfatının inkişafında oynadığı rol, bu qanunların doğurduğu nəticələr araşdırılmış və təhlil edilmişdir.

H.Əliyev torpaqların xüsusi mülkiyyətə verilməsi haqqında qanunun Azərbaycan tarixində ilk mütərəqqi qanun olacağını qeyd etmişdir.[3] Dünya təcrübəsinin ətraflı öyrənilməsi nəticəsində aydın olmuşdur ki, keçid dövründə olan ölkələrin əksəriyyətində yalnız həyətyanı torpaqlar xüsusi mülkiyyətə, qalan torpaqlar isə 50 ilə və yaxud uzun müddətə icarəyə verilmişdir və həmin ölkələrin heç birində torpaqların xüsusi mülkiyyətə verilməsi haqqında qanun yoxdur[4]. H.Əliyev qeyd etmişdir: «Torpağı xüsusi mülkiyyətə verməkdə bizim əsas məqsədimiz torpaqdan istifadənin səmərəliliyini, torpağın məhsuldarlığını

[1] Azərbaycan ensiklopediyası. İqtisadiyyat bölümündə. Azərbaycanın kənd təsərrüfatı. Bakı: Səda, 2007,s.193.
[2] Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illər ərzində. Naxçıvan, 2001, s.31.
[3] Yenə orada.
[4] Səmədzadə Z. Dünya iqtisadiyyatı. Bakı: Nurlar, 2001,s.165.

artırmaqdır. Torpaq şəxsi mülkiyyətdə olanda torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır».[1] 1995-ci ildə Resbuplika rəhbərinin göstərişi ilə aqrar qanun layihələrinin qəbul edilməsi üçün ilk sınaq təcrübəsinə Zaqatala və Xızı rayonlarında başlanıldı.[2]

Respublika miqyasında aqrar islahat tədbirlərinə başlamaq üçün ölkə ərazisində əkinə yararlı olan torpaq sahələrinin, heyvandarlıq təsərrüfatlarının ümumi sayının müəyyən edilməsi vacib məsələ olduğu üçün 1996-cı ilin 29 noyabrında Nazirlər Kabinetinin qərarı ilə əhaliyə məxsus olan təsərrüfatlar da daxil olmaqla, (mülkiyyət formasından asılı olmayaraq) əkinə yararlı olan torpaq sahəsi və mal-qarası olan bütün idarə və müəssəsələrdə 1996-cı il dekabrın 1-i vəziyyətinə əkin sahələrinin və yığılmış məhsulun, 1997-ci il yanvarın 1-i vəziyyətinə isə bütün növ mal-qara və quşların hesabatının aparılmasına başlanılmışdı.[3]

Milli Məclisin 16 iyun 1996-cı il tarixli iclasında «Torpaq islahatı haqqında» Qanun müzakirə olundu və qəbul edildi. «Torpaq islahatı haqqında» Qanunla respublikada ümumi torpaq fondunun 56.9%-i dövlət torpaqlarına, 23.5%-i bələdiyyə mülkiyyətinə, 19.6% -i isə xüsusi mülkiyyətə ayrıldı.1 mln. 953 min 264 hektar dövlət torpağı əkin-biçin üçün ölkə əhalisinə pay kimi verildi.[4] Qanunla torpaq mülkiyyətçilərinə torpağı satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, icarəyə və vərəsəliyə vermək, əlavə torpaq sahəsini satın almaq sahəsində geniş hüquqlar verildi.[5]

Torpaq islahatları yeni təsərrüfat formalarının yaradılması ilə nəticələndi. Respublika ərazisində 1996–ci ildən etibarən 1300-dən çox kolxoz və sovxoz ləğv edildi, onların bazasında 35 minədək kəndli (fermer) təsərrüfatları, o cümlədən 224 kooperativ, 491 kiçik müəssisə, 1676 birgə təsərrüfat yaradıldı.[6]

Aqrar sahədə uğurlu nəticə əldə etmək üçün torpaq islahatları ilə eyni zamanda meliorasiya və su təsərrüfatında da islahatların aparılması vacib idi. 26 oktyabr 1996-cı il tarixli, 150 saylı qərarla Azərbaycan Respublikası

---

[1] Heydər Əliyev. «Torpaq islahatı haqqında» qanun layihəsinin müzakirəsinə həsr edilmiş iclasda yekun nitqi. //«Azərbaycan»qəz.., Bakı, 1996, 13 iyul

[2] Aqrar islahatlar 10 ildə.// Elmi–tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutu. Bakı: Nurlar,2005, s. 57.

[3] Azərbaycan ensiklopediyası. İqtisadiyyat bölümündə. Azərbaycanın kənd təsərrüfatı. Bakı: Səda, 2007,s. 193.

[4] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu: Tarix elm.dok…. dis. Bakı, 2003,s.159.

[5] Azərbaycan Respublikası MMA: f.2941, siy.1, iş. 390, v. 1-44.

[6] İbrahimov İ. Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı: Səda, 2005,s.94.

Nazirlər Kabineti «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında» Əsasnaməni təsdiq etdi.[1] Həmin qərarla 1997-cı il 1 yanvar tarixindən respublikada mərhələlər üzrə suvarma suyundan pullu istifadəyə keçilməsi nəzərdə tutulurdu. Əsasnaməyə əsasən, dövlət suyun satışının 90-95%-ni fermerlərə güzəştlə satılmasını təmin etmişdir. Bu sahədə görülmüş ən əhəmiyyətli tədbirlərdən biri artezian quyularının və nasos stansiyalarının 10 il müddətinə əvəzsiz olaraq özəl bölməyə verilməsi idi.[2]

Azərbaycan Respublikasında aqrar islahatlar səciyyəvi özəlliklərlə aparılmışdır. Belə ki, respublika Prezidenti H.Əliyevin uğurlu siyasəti nəticəsində 1995-1998-ci illərdə islahatların normativ-hüquqi bazasının yaradılması ilə eyni zamanda konkret sahələrdə aqrar islahatların həyata keçirilməsinə başlanmışdı. Belə ki, 1999-ci ildə normativ-hüquqi bazanın yaradılması prosesi başa çatarkən demək olar ki, kənd təsərrüfatında torpaq və əmlakın xeyli hissəsi artıq özəlləşdirilmişdi. Buna görə də aparılmış təhlillərdən belə nəticəyə gəlmək olar ki, respublikada kənd təsərrüfatında həyata keçirilmiş istahatlar öz məntiqi nəticələrini 1999-ci ildən etibarən göstərməyə başlamışdı.

Fəslin ”Aparılan islahatların ilkin təcrübi nəticələri”adlanan ikinci yarımfəslində 1994-2003-cü illərdə aqrar islahatların aparılmasına kömək məqsədilə beynəlxalq təşkilatların irəli sürdüyü 21 layihənin (TASİS proqramının 7, Dünya Bankının 2, Almaniya hökumətinin GTZ təşkislatnın 3, Hollandiyanın PSO Proqramının 2, Yaponiya hökumətinin1, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 3, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (İFAD) 1, QDİƏT 1 və Avropa Komissiyasının 1 layihəsini) həyata keçirilmə prosesi təhlil edilmişdir.[3] Həmin layihələr respublikanın aqrar bölməsində bazar iqtisadiyyatına keçid şəraitində torpaq mülkiyyəçilərinə yeni vərdişlər qazanmağa və dünya təcrübəsindən istifadə etməyə imkan yaratmışdır.

Ümumiyyətlə, H. Əliyevin uğurlu siyasəti, gördüyü tədbirlərin nəticəsində Azərbaycan Respublikası kənd təsərrüfatına 300 mln. dollarıdək xarici investisiya cəlb olunmuşdur.[4] Aqrar islahatlar gedişində ölkənin kənd təsərrüfatında bölgələr üzrə ixtisaslaşma dəyişdi və bu da əhalinin tələbatı ilə

---

[1] Yenə orada, s.94

[2] Lətifov D. Heydər Əliyev Azərbaycanda aqrar islahatların memarıdır. //«Xalq» qəz.., Bakı, 2006, 17 may.

[3] İbrahimov İ. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: Təhsil- Elm, 2002,s.79.

[4] İbrahimov İ. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: Təhsil- Elm, 2002,s.81.

izah olunmalıdır. Belə ki, 90-ci illərə qədər Azərbaycanda istehsal olunmuş çay, üzüm və subtropik meyvələrin 90%-ni verən cənub iqtisadi rayonu (Lənkəran–Astara iqtisadi rayonu) aqrar islahatlar nəticəsində öz ixtisaslaşma növlərini dəyişdi. «Torpaq islahatı haqqında» Qanun qəbul edildikdən sonra Lənkəran-Astara iqtisadi rayonunda yaranmış fermer təsərrüfatlarında kartof əkinlərinə marağın artması, üzüm, taxıl, çay bitkilərinə nisbətən, bu bitkinin satışından daha çox gəlir əldə edilməsi ilə izah oluna biliər. İslahat başlanarkən qarşıya kənd təsərrüfatı məhsullarının istehsalında üstünlüyün əhalinin əsas növ ərzaq məhsullarına olan tələbatının ödənilməsinə yönəldilməsi vəzifəsi qoyulmuşdur. Bu baxımdan Lənkəran–Astara iqtisadi rayonunun təsərrüfat yönümü tamamilə dəyişmişdir.

Fəslin üçüncü fəsli "Aqrar islahatların sürətləndirilməsində dövlətin tənzimləyici rolu" adlanır. "Bölgələrin ictimai-iqtisadi inkişafının aqrar sahəyə təsiri" adlanan birinci yarımfəslində İ.Əliyevin hakimiyyətinin birinci dövründə (2003-2008-ci illərdə) müasir aqrar siyasət xəttinin sürətləndirilməsi, kəndlilərin həyat səviyyəsinin yüksəlməsi, şəhərlə kənd arasındakı başlıca fərqlərin aradan qaldırılması məsələləri təhlil olunmuşdur.

Nazirlər Kabinetinin 2003-cü ilin 17 noyabrında keçirilmiş ilk iclasında İ.H.Əliyev qeyd etmişdir ki, ölkədə torpaq özəl mülkiyyətə verilmişdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında böyük uğurlar qazanılmışdır. Bu ənənə davam etdirilməlidir.[1]

Beləliklə, İ.Əliyevin bu tarixi çıxışından sonra 2003-cü ildən Azərbaycan Respublikasında aqrar islahatların üçüncü mərhələsi başlandı. Bu mərhələnin başlıca müddəaları «Kənd təsərrüfatı istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» (28 noyabr, 2003-cü il), «Baytarlıq haqqında»(31may, 2005-ci il), «Ailə kəndli təsərrüfaı haqqında» (14 iyun, 2005-ci il), «Damazlıq haqqında» (18 dekabr, 2007-ci il), «Ekoloji təmiz kənd təsərrüfatı haqqında» (1 aprel,2008-ci il) «Arıçılıq haqqında» (2 fevral, 2009-cu il) və s. dövlət sənədlərində öz əksini tapmışdır.

H.Əliyevin aqrar sahədə siyasətini uğurla davam etdirən İ.Əliyevin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirlməsi tədbirləri haqqında» Fərmanı və bu fərmandan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» ölkədə aqrar siyasətin uğurlu davamı

---

[1] Atakişiyev M. Sürətli inkişafı təmin edən təkmil konsepsiya //«Azərbaycan» qəz.., Bakı, 2006, 11fevral

kimi qiymətləndirilməlidir.[1]2008-ci ilədək gerçəkləşdirilmiş fəaliyyət proqramında reqionların iqlim xüsusiyətləri nəzərə alınaraq, bölgələr üzrə taxılçılığın, üzümçülüyün, pambıqçılığın, bostan-tərəvəz bitkilərinin və heyvandarlığın daha da inkişaf etdirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması ön plana çəkilmişdir.[2] Dövlət Proqramında özəl bölmənin inkişafına xüsusi diqqət ayrılması sayəsində respublikada sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin sayı 15669-a çatmışdır və onlardan 9521-i bilavasitə kənd təsərrüfatı ilə, 6148-i isə emal sahəsində fəaliyyət göstərən şəxslərdir.[3] 1995-ci illə müqayisədə 2009-cu ildə Azərbaycan Respublikasında ÜDM 9,3% artmışdır.[4]

Dövlətin aqrar siyasət xəttinin nəticəsində 1391716 ha torpaq fondu özləlləşdirilərək vətəndaşların xüsusi mülkiyyətinə verildi.[5] Lakin hələlik bu yanaşma ölkənin aqrar həyatının tam çiçəklənməsinə ğətirib çıxartmamışdır. Kəndli təsərrüfatı fəal və düşünülmüş müdaxilədən kənarda qalmaqda hələ də davam etməkdədir. Bütün bunlara baxmayaraq, qeyd etmək vacibdir ki, torpağa sahibolma duyğusu aqrar sahəyə maraqlı insanları öz fəaliyyətlərində stimullaşdırdı.

Dissertasiyanın **«Nəticə»** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

---

[1] http://www.preslib.az Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər).

[2] İlham Əliyevin iqtisadi inkişaf konsepsiyası torpaq-əkinçi münasibətlərində yeni dövrün başlanğıcını qoydu. //«Respublika» qəz.., Bakı, 2006, 31 oktyabr.

[3] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda giriş nitqi. // « Azərbaycan» qəz.., Bakı, 2008, 12 yanvar

[4] Yenə orada.

[5] Azərbaycan rəqəmlərdə 2009. Azərbaycan Respublikası DSK. Bakı, 2009, s 9.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Müstəqillik dövründə aqrar islahatların həyata keçirilməsi //Bakı Universitetinin Xəbərləri, 2006, №1, s. 68-73.
2. XX yüzilliyin 90-cı illərinin əvvəllərində aqrar problemlər və çətinliklər // Tarix və onun problemləri, 2008, №1-2, s. 189-194.
3. Torpaq islahatlarının aqrar sahənin inkişafında rolu (XX əsrin 90-cı illərində // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2008, № 5, s. 74-79.
4. Naxçıvan Muxtar Respublikası- aqrar islahatların ilk sınaq meydanı // Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə elmi-praktik konfransının materialları,Bakı, 2009, s. 42-46.
5. Роль международных проектов в развитии аграрного сектора Азербайджана в 1994-2003 гг // Исторические науки, 2009, №1, с. 71-77.
6. Государственная политика Азербайджана в аграрной отрасли конца XX - начала XXI веков // Материалы III Международной научной конференции 17-19 ноября 2010 года, Пятигорск, 2010, с.130-131
7. Аграрные реформы в Азербайджанской Республике и международные проекты (1991-2008гг). //Хабаршы Вестник, №1(60), Алматы, 2011,с.149-153.
8. Türk dünyası- enerji projeleri ve modern dünya.// Turan, Stratejik Araştırmalar Merkezi, 2011, №12, s.95-99.
9. Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatların tarixi nailiyyətləri // Bakı Universitetinin Xəbərləri, 2012, №2, s. 68-73.

**Х.А.Исламова**

**Аграрная политика Азербайджанской Республики (1991-2008-гг)**

**Резюме**

Диссертация посвящена изучения истории аграрной политики Азербайджанской Республики в 1991-2008-гг. Это работа имеет важное научное и практическое значение для Азербайджанской истории, будучи посвящена интересной, и в то же время сложной и противоречивой проблеме.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении обоснованы актуальность и научная значимость темы, указаны хронологические рамки исследования, степень изученности проблемы и ее источниковедение, определены цель и задачи исследования. Также показаны методологическая основа диссертации, научная новизна и ее практическое значение.

Первая глава диссертации называется «Положения в аграрной сфере Азербайджана в первой половине 90 гг». В этой главе изучается общественно- политическая ситуация в стране накануне независимости, а также военное положение в начальной стадии государственного строительства, все более углубяющийся кризис в сельском хозяйстве страны и ее причины, необходимость реформ в данной сфере и первые шаги в этом направление.

Вторая глава диссертации называется «Создание юридической базы аграрной политики». В этой главе изучаются юридическая и политическая база основного направление аграрных реформ-земельной реформы, экономические и социальные задачи аграрной политики, специализация и централизация изучения сельскохозяственных областей, первые итоги проводящейся политики.

В называющейся «Широкомащтабное государственное регулирование ускорения аграрных реформ».Третьей главе диссертации изучается позиция И.Алиева в современной истории аграрной политики, политика государственного регулирования и ее направления,влияние регионального общественно-экономического развития на аграрный сектор, современное положения в сельскохозяственной отрасли страна.

В заключительной части диссертации подводится итог исследованию, делаются обобщения и анализируются полученные результаты.

**H.A.Islamova**

**Agrarian policy of the Azerbaijani Republic (1991-2008)**

## SUMMARY

The dissertation is devoted to studying the history of an agrarian policy of the Azerbaijani Republic in 1991-2008. This work has important scientific and practical value for Azerbaijani history, being devoted to interesting, and at the same time a complex and inconsistent problem.

The dissertation is composed of an introduction, three chapters, a conclusion and bibliography. The introduction examines the importance of the research done, indicates chronological order, explores the level of the study to the problem, sources and eventually defines the aims and objectives of the research. Moreover, it designates its methodology, scientific innovation and practical importance.

The first chapter, devoted to «Situation of the agrarian sphere in Azerbaijan in the first half of 90-s ». In this chapter the socio-political situation in the country on the eve of independence, and also military situation in an initial stage of the state building, increasingly deepening crisis in agriculture of the country and its reason, need for reforms in this sphere and the first steps in this direction is studied.

Chapter 2 of the dissertation is called «Creation of legal base of an agrarian policy». In this chapter legal and political base of the a main directions of agrarian reforms, land reforms, economic and social problems of an agrarian policy, specialization and centralization of studying of the agricultural areas, the first results of the carried out policy are studied.

In a chapter called «High-scale state regulation for acceleration of agrarian reforms». In a chapter 3 of the dissertation I.Aliyev's position in modern history of an agrarian policy, the policy of state regulation and its direction, influence of regional socioeconomic development in agrarian sector, contemporary situation in agrrucultural sector of the country is studied.

In the conclusion of the dissertation the rescerch results, summerized generalizations are made and results are analyzed.

Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,9
Tiraj  100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ХОШГЕДЕМ АКИФ КЫЗЫ ИСЛАМОВА**

# АГРАРНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2008-гг)

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2013**